**Əli Rza XƏLƏFLİ**



## MƏNİM SEVGİ RUHUM

Şirin yuxu dadını itirər çox yatanda...
Yerin üzü qaralar göydə günəş batanda.

Üzünü göstər gülüm qəlbimə nur çilənsin..
Varlığıma, ruhuma söz yağışı ələnsin...

Xəyalımın göyünə qanadlansın ilhamım,
İlahi gözəlliyə göy üzündən boylanım...

Allahın mələyisən bir gözəllik donunda,
Göy üzündə yerin var qiyamətin sonunda.

Mən səhər küləyindən duydum sənin qoxunu,
Gözlərindən qovaram öə-öpə yuxunu

Ceyranın göbəyindən müşk yayılar çöllərə,
Çöllər məstlik əvəzi təzim eylər yellərə

Mən də bihuş olmuşam, nə ətir, qoxudur bu,
Bilmirəm ki, oyağam, yoxsa ki, yuxudur bu...

Yol gəlmişəm ömürdə tufanlı payızıma,
Sənin sevgin qaytarıb baharıma, yazıma.

Dalğalanan dənizdir eşqin mənim sinəmdə,
Xəyalın mənimlədir gizlənəm də, sinəm də

Sevmədim bir kimsəni hələ belə yanğıda,
İnanmazdım sevgi də gələ belə yanğıda.

Bilmirəm hara çəkir bu od, bu ataş məni,
Daha dönən deyiləm yandırsa Günəş məni

"Allahım" - nizə - nidan sinəmdən ah qoparar,
Bilmirsənmi hər nizə qan tökər, can aparar...

Səni sevdim sözünün hökmü qanımdan gəlir
İstəyin cazibəsi çəkir canımdan gəlir.

Mən tələsdim dünyaya, yoxsa ki, sən gecikdin,
Niyə cevgi gülünü varlığıma gec əkdin.

Varlığımın gülüdür sən verdiyin bu dünya,
Qəlbimə nur gətirib göndərdiyin bu dünya.

Ürəyimin taxtında şahanə aramın var,
Könlümə yaz gətirən gülüzlü məramın var...

Deyirlər bir gül ilə bahar olmaz, yaz olmz,
Sənin əkdiyin gülün zamanı, vaxtı solmaz.

Mənim könül bağımda sən güllərin tacısan,
Solan həyat eşqimin dərmanı, əlacısan.

Xələfliyə dedim ki, murad istə Tanrıdan,
Sənə də bir pay gələr qismət üstə Tanrıdan.

Söylədi şahlıq quşu hər kəsə nəsib olmaz,
Hər əl açan dərgahdan istəyinə pay almaz.
12.08.2024

## SÖZ İÇİNDƏ SÖZÜM VAR

*Dostum Saməddin bəyin istəyincə*

Hər günümüz diləkdir,
Arzu, istək bitirsin...
Hər sözüm bir ürəkdir,
Ürəksizlər götürsün...

Ürək olmayan yerdə
Həsəd yolu bağlayar....
Köz olar sinələrdə,
Qərəz könül dağlayar.

Duyğuların köçündə
Bir fidan da solmasın.
İnsanların içində
Ürəksizlər olmasın.

Ürəyi yananların
işığı yol çırağı...
Yaddaşı donanların
Gəlməz səsi, sorağı.

Gələn gəlsin aparsın
Güzgülü gerçəyim var.
Könül bağıma varsın,
Söz gülüm, çiçəyim var...

Mən sevda adamıyam
Sevənlərin bağında...
Göydə yerin damıyam
Uca Tanrı dağında.

Göy üzündən baxıram,
Düşüncədən korlara..
Şimşək- şimşək çaxıram,
Qor tökülsün torlara.

Xələfli yaxşı bilir,
Söz içində sözüm var...
Mənalar üzə gülür,
Qoy sevinsin adamlar.
*Lökbatan, 22.09.2024*

## BƏNÖVŞƏ

Başım havalıdı, görmür gözlərim,
Baxışın şimşəkdi, çaxa, bənövşə!
Bəxti kəm doğuldun, taleyi qara,
Qismətin göylərdən yağa, bənövşə!

Yollarım uzalı Vətən qoludu,
Bu yollarda qorxu, qada doludu.
Məskənin kol dibi, meşə yoludu,
Səni nə gətirib bağa, bənövşə?!

Həsrət, hicran salıb pəjmürdə hala,
Dərdin çərşənbədə tökülə, qala...
Gözəlin qisməti sevilmək ola,
Məhəbbət yandırıb, yaxa, bənövşə!

Dərdinlə sinəmi belə oyma sən,
Bəxtin gileyinə çox da uyma sən...
Karvanqıran ulduz, yoxsa aymısan,
Gedirəm işığa, ağa, bənövşə!

Şairə nə gəlsə sözündən gələr,
Dərilmək istəyi özündən gələr.
Vədə xilaf çıxsan gözündən gələr,
Məndən demək qalır, bax a, bənövşə!

Gözəldi, deyilsə söz vədəsində,
Söz də çəkər axı öz vədəsinə.
Qışın oğlan çağı açılmaz sinə -
Vaxtın sazağında yaxa, bənövşə!

İstəsən də bir ürəkdən gülmürsən,
Ağlayırsan göz yaşını silmirsən.
Düşmüsən bir oda çıxa bilmirsən,
Boylanma heç sola, sağa, bənövşə!

Bir ana gərəkdir mələyə səni,
Qismətin gətirir bərəyə səni.
Taleyin aparır tələyə səni,
Qovulan ov qaçar dağa, bənövşə!

Sözümdəki ağrı qərib ağrıdı,
Dağların yazığı qərib Ağrıdı.
Baxışın itidi, kəsib doğradı
Baxmırsan sınəmdə dağa, bənövşə!

Dağını, dərəni kim aldı sənin,
Yerini, yurdunu taladı sənin...
Bəxtini odlara qaladı sənin,
Başından çəkilmir qoğa, bənövşə!

Ömrün cəhrəsini zaman əyirir,
Fələyin çərxi də elə əyridir.
Xələfli içində yağdı əriyir.
Özün bax cızdağa, dağa, bənövşə!
*19-20-2001,*
*Binəqədi - Lökbatan*

## HARDAN GƏLDİN ÜRƏYİMƏ

Hardan gəldin ürəyimə,
Duyğularım çiçəkləndi.
Nəfəsinlə istəyimə
Gün doğdu, sevgi ələndi.

Biz görüşən fəsillərdə,
Mən payızda, sən yazdasan;
Sən sevincdə, mən kədərdə,
Mən qayğıda, sən nazdasan.

Qəlbimin odunda yanan
Sevgimin gerçək üzüdür...
Sənin sevginə boyanan
Düşüncəmin gündüzüdür.

Doğrayıb kəssən torları
Açəlmazmı yol, irizim;
Dönməzmi ömrün baharı,
Gülməzmi bürcüm, tərəzim...

Hardan gəldin ürəyimə,
Duyğularım çiçəkləndi.
Nəfəsinlə istəyimə
Gün doğdu, sevgi ələndi.

## BƏXTİMƏ GƏLƏN MƏLƏK

Gəl, gəl Allahın mələyi,
Könlümdə səhər açılsın.
Əssin bir sevgi küləyi,
Bəxtimə təhər açılsın.

Baldan da şirin salamın,
Sözlərimə dad gətirsin.
Pöhrələnən istəklərim
Fidan duyğular bitirsin.

Sən ömrümün payızını
Qaytarmısan baharına,
Əvəzində mən də sənin
Sığal çəkim saçlarına.

Xəyalımın əlləriylə
Qucaqlayım belini də,
Yeyim sənin söz qarışıq
Şirin şəkər dilini də.

Gözlərimlə şəkil çəkim
Xəyalımın röyasında.
Şəkil olsun ürəyimiz
Qan qırmızı boyasında.

Çəkib alsa ölüm məni,
Ruhumu al özün saxla.
Qopsa qiyamət tufanı
Canımı da sən qucaqla.

Səni Allahım göndərib,
Uç, dolan başımın üstə.
Ruhum dönər bədənimə,
Qonsan baş daşımın üstə.
22.08.2024

## UNUTMA SÖZÜMÜ, KARVAN

*Cəbrayıla ilk köç getdi*

Karvan, gedər oldun bizim diyara,
Məndən də bir salam apar o yurda,
Mənim gözlərimlə daşa, divara,
Bir nəzər sığalı çəkərsən orda.

Bir bulaq üstündə adımı söylə,
Bir ovuc sərinlik gəlsin qəlbimə.
Karvan, Xan Çinardan bir xahiş eylə,
Bir nəfəs göndərsin mənim təbimə.

Çəkim o nəfəsi ciyərlərimə,
Açılsın ruhumun qaşı, qabağı.
"Əlvida" söyləyim kədərə, qəmə,
Sözümlə güllənsin könlümün bağı.

Karvan, o yerlərdə bir az asta ol,
İllərdir o yerdə dərd, ələm bitir.
Tutiya payımı o cığır, o yol,
Qubarlı tozundan nə versə gətir.

Unutma sözümü, Karvan, sən Allah,
Özün bulaqları öpə-öpə get.
Vallah özgəyə payım yoxumdu daha,
Sözümü yollara səpə-səpə get.
*26.09.2024*

## SÖNMÜŞ OCAQDAN QORLANMA

*(Çoxdanın şeiri)*

Tanrı səni xoş məqamda yaratmış,
Dünyanın bircəsi, bir danəsisən.
Səndən aşağıda dünya tar atmış,
Sən özün Allahın möcüzəsisən...

Bil ki, sən atlısan, dünya piyada,
Qəmi sel olsa da dizinə çatmaz...
Hər sözüm şəninə güllənən buta,
Yazsam da izinə, tozuna çatmaz...

Dərdimin üstünə bir dərd qoyma sən,
Sənin bu dünyada sevgi payın var.
Elə baxma, ürəyimi soyma sən,
Bir mərdin əlində alma payın var...

Tanrıdan aldığım möhlət, pay gözəl,
Başımın üstündə günah daşım var...
Sən məni bəxtəvər sanma, ay gözəl,
Mənim də başıma bəla başım var...

Bu dünyanın axırında, sonunda,
Tanrı mələklərlə dilləşə bilər...
Sev ki sevilənlər mələk donunda
Tanrı hüzurunda əyləşə bilər...

*2000 ci il*

## BƏNÖVŞƏ

*Şair qəhrəman Elsevər Beyrəyin xatirəsinə*

Qəmin göz yaşının selinə dönüb,
Nə yaman olmusan kövrək, bənövşə.
Yazağzı soyuğa açma sinəni,
Diləyin köksündə titrək, bənövşə...

Göz dəyər soyunub şehdə çimənə,
Qəfil sırsıradan qorxa, eymənə;
Yazdan xəbər üçün çölə, çəmənə,
Nə yaman gəlmisən yührək, bənövşə!

Dağında, bağında göz olan gözəl,
Yandırar gözləri köz olan gözəl;
Başının bəlası söz olan gözəl,
Bəxtindən hürkəksən, hürkək, bənövşə!

Axır ki, dolanıb üzü bu yana,
Haqdan cəza gələr sənə qıyana;
Bitmisən göz dağı talana , qana,
Kolların dibində seyrək, bənövşə!

Xələfli söyləsin həzin əsənə,
Bəxtindən gileyli olub küsənə;
Şəhidlik yolunda can dedi sənə,
Yağıya göz dağı Beyrək, bənövşə.

*10.10.2020*

* * *

Ayrılığı alnıma yaz da, görərəm səni,
Qismətimə pay düşən azda görərəm səni.

Sinəm dərdin bağçası, qəmlərin seyrangahı,
Göz süzdürüb baxasan, nazda görərəm səni.

Nə ola, bir güləsən, gülüşün şimşək çaxa,
Dağ başında, zirvədə, gəzdə görərəm səni.

Yada salıb sən məni qonaq olsan könlümə,
Öpərəm qədəmini, üzdə görərəm səni.

Atsalar od içinə, alovlar ütsə məni,
Mən yandığım ocaqda, közdə görərəm səni.

Aparsa varlığımı son baharın tufanı,
Qış dondursa canımı, buzda görərəm səni.

Bir mələksən, gəlmisən bilirəm göy üzündən,
Neçə üzün içində üzdə görərəm səni.

Sevgimin dənizində qoy çimsin duyğularım,
Dalğaların qoynunda üz də, görərəm səni.

Baş əyərəm önündə inanc yeri, pir kimi,
Həqiqətdə, doğruda, düzdə görərəm səni.

Canımsan, nəfəsimsən, sən udduğum havasan
Yediyim hər çörəkdə, duzda görərəm səni.

Ürəyimin telləri titrəyir adın ilə,
Simlərin tufanında, sazda görərəm səni.

Göz yaşımla sulanan qəbrimdə gül dolanar,
Hər doğulan baharda, yazda görərəm səni.

Xələflini yazdığı dastan olsun, mənə nə,
Öz yazdığım misrada, sözdə görərəm səni.

## GÖRƏRƏM SƏNİ

*Xələflidən təxmis -*
*Əli Rzanın qələmində*

Harda olsan könüldə, gözdə görərəm səni,
Biləsən ki, hər dağda, düzdə görərəm səni.
Könlümə gələn yolda, az da, görərəm səni,
Ayrılığı alnıma yaz da, görərəm səni,
Qismətimə pay düşən azda görərəm səni.

Ey Allahım mələyi, könlümün qibləgahı,
Açılmayan sirrimin bircə sənsən agahı.
Qoy təkcə mənim olsun sevənlərin günahı,
Sinəm dərdin bağçası, qəmlərin seyrangahı,
Göz süzdürüb baxasan, nazda görərəm səni.

Vəcdə gələk sevgidən açılsın sinə, yaxa,
Sevinə Allahımız göy üzündən bir baxa,
Bizim sevgi nəhrimiz daşa, sellənə, axa,
Nə ola, bir güləsən, gülüşün şimşək çaxa,
Dağ başında, zirvədə, gəzdə görərəm səni.

Ölmərəm, nəfəsinlə unaq olsan könlümə,
Sınmaram daşa çalsan, sınaq olsan könlümə,
İncimərəm, mələyim, qınaq olsan könlümə,
Yada salıb sən məni qonaq olsan könlümə,
Öpərəm qədəmini, izdə görərəm səni.

Yusifin bazarında kimsələr satsa məni,
Xəyalımdan çıxmazsan bayqular didsə məni,
Peşman olan deyiləm səhralar udsa məni,
Atsalar od içinə, alovlar ütsə məni,
Mən yandığım ocaqda, közdə görərəm səni.

Aşiqlər can atarlar, bir görələr səfanı,
Məcnunluğun andı var, dilə gətir vəfanı.
Harda olsan çəkərəm bu sevgidə cəfanı,
Aparsa varlığımı son baharın tufanı,
Qış dondursa canımı, buzda görərəm səni.

Sevənlərin dilindən sədasan oy üzündən,
Qəlbimə işıq düşər nurunun Ay üzündən,
Könlümün şəhərindən, ruhumun köy üzündən,
Bir mələksən, gəlmisən bilirəm göy üzündən,
Neçə üzün içində üzdə görərəm səni.

Ey əzizim, sən sevin, gülsün yazım, baharım,
Bu dünyadan qazancım-- sənsən sərvətim , varım,
Tufanlar şahə qalxsa, dəyişməzdir axarım;
Sevgimin dənizində qoy çimsin duyğularım,
Dalğaların qoynunda üz də, görərəm səni.

Bulanmış, durulmuşlar sənə bənzər dür kimi,
Qaranlıqlar içindən bərq vurarsan nur kimi,
Yalanlar qanad açsa, açılmazsan sirr kimi.
Baş əyərəm önündə inanc yeri, pir kimi,
Həqiqətdə, doğruda, düzdə görərəm səni.

Sən gəlmisən bəxtimə, hər qadamı sovasan,
Sən Dirilik suyusan , dərdlərimə dəvasan,
Nəğmə dolu ürəksən, həzin səsli nəvasan,
Canımsan, nəfəsimsən, sən udduğum havasan,
Yediyim hər çörəkdə, duzda görərəm səni.

Sən ömür kitabımsan, yaddaşın, yadın ilə,
Könlümü ovudansan arzu, muradın ilə,
Dərdimi yaşayırsan səssiz fəryadın ilə,
Ürəyimin telləri titrəyir adın ilə,
Simlərin tufanında, sazda görərəm səni.

Zaman keçər üstümdən, qışımdan il dolanar,
Xatirədə, yaddaşda yaşadan el dolanar,
Sən də məni anarsan, adımda dil dolanar,
Göz yaşınla sulanan qəbrimdə gül dolanar,
Hər doğulan baharda, yazda görərəm səni.

Əli Rza sözünün gülü solsun, mənə nə,
Baxsın solan güllərə, qəmə dolsun, mənə nə,
Tellənən saçlarını kədər yolsun, mənə nə,
Xələflinin yazdığı dastan olsun, mənə nə,
Öz yazdığım misrada, sözdə görərəm sən.

*05.09.2024.*

## YOL ÜSTƏ DÜŞÜNCƏLƏR

Ay dostum könlümdə sözün gül açır,
Yazdığın ruhuma salam gətirir...
Sənin yazdığından günəş nur saçır,
Hər sözün qəlbimdə işıq bitirir.

"Bu dünya məndən də ötübdü daha",
Bilmirəm nə deyim bunu deyənə...
İnamla deyirəm özüm sabaha
Gələrəm dünyaya sözümlə yenə...

Mənim həyat eşqim, yaşamaq arzum
Sevgimlə yaşayır duyğularımda...
Qövsi qüzeh üstə yeriyən sözüm,
Bir gün çiçək açar ruh diyarımda.

Məni ruhumda gör, yazımda ara.
Məni soruşana cavabım budur...
Günümün rəngi də ya ağ, ya qara,
Ömür kitabımı bəxtim oxudur.

Deyirəm, nə vaxtsa həsrətə dolsan,
Nəmli gözlərini xatirənlə sil...
Bir payız yurduna yolunu salsan,
Məni xəzan altda , yaxınlıqda bil...

Ay dostum,bilirsən kiməm, nəçiyəm,
Məni yaxşı bilən çətin tapılar;
Hələ ki, dünyada kirayəçiyəm,
Bir gün könüllərdə evim yapılar...

*28.07.2023*
*Lökbatan,*

## ÜRƏYİMİ APARMISAN

*Şeirlərimi incə zövqlə oxuyan*
*qiraət ustası Dürdanəyə*

Qayıdıb könlümə yenə gəlməsən,
Bilmirəm kim olar, Günəşim, Ayım.
Axı ürəyimi aparmısan sən,
Bəs sənə sevgimi harada saxlayım?

Ruhumda ağlayan səsin olsa da,
Şimşək gülüşlərin yadımdan çıxmır.
Sevgim sənsizlikdən yetim qalsa da,
Bəxtim bir boylanıb üzümə baxmır.

Ayrılıq dağını sinəmə çəkib,
Başımda dumana, çənə baxırsan.
Sən mənim ruhuma qəmləri əkib,
Cücərən dərdlərə, dənə baxırsan.

Bir inci bilmişdim səni, gözəlim,
Kasıblıq daşını atmışdı baxtım.
Əsdi xəzan yeli... güldü xəzəlim,
Küləklər sovuran bəxtimə baxdım.

Qayıdıb könlümə yenə gəlməsən,
Bilmirəm kim olar, Günəşim, Ayım.
Axı ürəyimi aparmısan sən,
Bəs sənə sevgimi harada saxlayım?

*30.09.2024*

## BAYATILAR

Qurağın yazı gülməz,
Yağmasa yazı gülməz.
Könül sözə dolmasa
Kağızda yazı gülməz.

Hakimi taxt bişirər,
Aşiqi baxt bişirər.
Giləsi gözü deşən
Qoranı vaxt bişirər.

Məstlik telindən gəlir,
Meylik əlindən gəlr
Baldan şirin sözünün
Dadı dilindən gəlir.

Bağdan üzüm dərəsən,
Gilələyib sərəsən.
Dodaqlarım çat verdi,
Bir gilə pay verəsən...

Sən təksən, birincisən,
Brilyantsan, incisən.
Dünya mənə dar olar
Üz çevirsən, incisən.

Sən məni havalı gör,
Könlündən sav alı , gör.
Ürəyimdən qan alan,
Hər sözümdə alı, gör.